Ədalət.-2019.-15 yanvar.-S.5.

# Seyran Səxavət: "Qarabağ əlilini incidən məmurun qanını içmək halaldır"

## “Füzuli yerində olanda mən Bakıda heç kəsi bəyənmirdim, yekə-yekə gəzirdim”

*Modern.az saytının ”Qarabağ söhbəti” layihəsi çərçivəsində növbəti müsahibi yazıçı Seyran Səxavətdir.*

*Seyran Səxavət 1946-cı il martın 23-də Füzuli rayonunun Yağlıvənd kəndində anadan olub. Həmin kənddə orta məktəbi bitirdikdən sonra Natəvan adına Füzuli şəhər məktəbində direktorun köməkçisi vəzifəsində işləyib (1962-1964). Sonra ADU-nun şərqşünaslıq fakültəsində təhsil alıb (1964-1970). Sovet Ordusu sıralarında əsgəri xidmət zamanı SSRİ Müdafiə Nazirliyində tərcüməçi olub (1970-1972). ”Ədəbiyyat və incəsənət” qəzeti redaksiyasında xüsusi müxbir, ədəbi işçi kimi çalışıb, sonra iki il İranda tərcüməçi işləyib (1974-1976). Yenidən Bakıda ”Ədəbiyyat və incəsənət” qəzeti redaksiyasında ədəbi işçi kimi fəaliyyət göstərib (1976-1981). Sonra ”Ulduz” jurnalı redaksiyasında nəsr şöbəsinin müdiri işləyib (1981-1991).*

*Bədii yaradıcılığa 1962-ci ildən dövri mətbuatda çap etdirdiyi şeir, hekayə və publisist yazıları ilə başlayıb. Həmin vaxtdan mərkəzi və respublika mətbuatı səhifələrində müntəzəm çıxış edir. Əsərləri keçmiş SSRİ xalqlarının dillərinə və bir sıra xarici dillərə tərcümə olunub. ”Qızıl teşt” pyesi Akademik Milli Dram Teatrında (1988), ”Büst” pyesi Lənkəran (1989), ”Qapıların o üzündə qalan dünya” pyesi Füzuli (1990) teatrında tamaşaya qoyulub.*

*2002-ci ildə ”Nekroloq” romanı Azərbaycan Yazıçılar Birliyinin Y.Səmədoğlu adına ”İlin ən yaxşı romanı” mükafatına layiq görülüb.*

*Seyran Səxavətlə söhbəti təqdim edirik.*

**- Füzulidə anadan olmusunuz. Səhv etmiriksə nənəniz də Şuşalıdır. Qarabağlı günlərinizi necə xatırlayırsınız?**

- Atası Füzulidən, nənəsi Şuşadan olan xeyli adam var. Onların hərəsi Qarabağı bir cür xatırlayır. Xatırlamağın da bir ölçüsü var. Amma bu xatırlamaq ölçüsü deyil. Şəxsən mən xatırlamıram, o anları yaşayıram. Bilirsən necə? Səninlə oturub üzbəüz söhbət edirəm. Sən mənim gözümün qarşısındasan, bu anda səni xatırladığımı desəm, gülməli çıxar. Bu mənada mən Qarabağı xatırlamıram, elə oralardayam. Hələ heç bu haqq-hesablar başlamamış, mən təxminən 40 il idi ki, Bakıda yaşayırdım. ”Nəsimi” filmində də belə bir məqam var: cisim və ruh məsələsi. Mən hələ oralardan gəlməmişəm, elə oralardayam. Bu bir reallıqdır. Müqayisə də etdim.

**- Qarabağ mühitində yetişənlərun bir çoxu Azərbaycan mədəniyyətinə böyük töhfələr verib. Siz ən çox kimlərdən təsirlənmisiniz?**

- Eldə bir söz var, bu tək adam işi deyil. Yəni kimisə yetişdirmək, sənin təbirincə formalaşdırmaq, ortaya çıxarmaq... Özü də elə bir şəkildə ortaya çıxarmaq ki, onunla hesablaşsınlar. Bu, tək adam işi deyil. Əvvəla kəndimizdə çox möhtəşəm mühit olub. Deyəsən, bir dəfə elə sizin saytdan sual vermişdilər ki, filan yazıçıların kumiri Çexovdur, filankəsinki başqası. Mən dedim ki, mənim kumirim var, amma onu heç kəs tanımır. O, mənim babam olub - İsmayıl bəy. O, gün ərzində heç 7-8 cümlə danışmırdı, ağır kişi idi. Danışanda da bir kəlmə ilə nə desən edə bilirdi. Bu, həm də sözə hörmətdir. Kəndimiz Qarabağın ən böyük kəndlərindən biridir. Bax oradan başlamış kənd mühiti, məktəb filan - bunları saymağa ehtiyac yoxdur. Mənim doğulduğum və 19 il yaşadığım kənd mühiti mənə təsir edib. Kənddən sonra mən rayon mərkəzinə gedib-gəlməyə başladım. Nənəm orada yaşayırdı. Rayonun, o şəhərin mənə təsiri... Bizim kənddə ən yaxşı halda at arabası vardı. Kəl arabası da vardı, amma at arabası ondan prestijli şey sayılırdı. Şəhərdə isə maşın vardı, benzin iyi vardı. Kənddə benzin iyi yoxdur. O benzin iyinə sivil ətriyyat kimi baxmışıq. Kənd uşaqları kimi benzin iyindən çox xoşumuz gəlib. Bu bizim getdiyimiz yoldur.

Mənə təsir edən birinci doğulduğum kənddir, kumirimi də dedim. Təbii ki, böyüdükcə mənə ən çox təsir edən Üzeyir bəy, onun publisistikası, yazıları, felyetonları, musiqisi idi. Sonra bizim Füzulidən ”Şərq musiqisinin incisi” adlandırılan, mənim də ata tərəfdən qohumum olan, atamın ana nənəsi tərəfdən qohumu Seyid Şuşinski, İslam Rzayev, Ağabala Abdullayev, Süleyman Abdullayev, yazıçılardan ata-anama orta məktəbdə coğrafiya dərsi demiş böyük yazıçımız İlyas Əfəndiyev... O zaman bu mühitdə böyümüşük.

Kamilləşməkdən söhbət gedir. Əslində kamilləşmək heç vaxt olmur. Kamil insan olmur. Biri o birindən babat insan olur.

**- Seyran müəllim, müsahibələrinizin birində demisiniz ki, Şuşaya tez-tez gedirdiniz, özü də xəngəl yeməyə. Bəs Qarabağın başqa yerlərinə nə üçün gedirdiniz?**

- Kənddə olanda, hələ uşaq vaxtı məni tapmaq üçün axtarmaq lazım deyildi. Kimsə bir yerdə dursaydı, uzağı yarım saatdan sonra gəlib oradan keçərdim. Bir yerdə duran deyildim. Böyüdükcə, mən ancaq Şuşaya getməmişəm. Azərbaycanda hər yeri qarış-qarış gəzmişəm. Getmədiyim kəndkəsək bəlkə də yoxdur. Hələ rayon mərkəzini demirəm. Şuşa belədir ki, nənəmgilin ilk erməni-müsəlman davasında yandırılan evlərinin yerində benzindoldurma məntəqəsi var idi. Onun yanında xəngəl verirdilər. Füzulidən otururduq maşına, 45-50 kilometr yol gedirdik. Dik meşələrin içərisindən gəlirdik ora, oradan isə gəlirdik Cıdır düzünə - Ərimgəldi qayasına. Həmin qayadan qadınlar oturub yola baxırdılar ki, ərləri nə vaxt gəlir, ya gəlmir. Ticarətə gedənlər, tacirlər və s. Ona görə həmin yerin adı Ərimgəldi qayası adlanırdı. Oradan, Cıdır düzündən mən elə bilirəm ki, bütün



Azərbaycan görünürdü. Xalqın bir ucalıq yeri olmalıdır ki, oradan özünə baxa bilsin. O da Şuşa idi. İndi oradan özünə baxa bilmir.

**- Şuşa amma yenə də xalqın ucalıq gözüdür...**

- Düzdür, ucalıqdır, amma fiziki cəhətdən hələ ki, ora dırmaşıb, özümüzə oradan baxa bilmirik. Əslində Azərbaycan Şuşa boyda uca bir yer olub - bütün mədəniyyəti ilə. İstənilən ucalıq Allaha tərəf can atmaq deməkdir. Sadəcə, biz o ucalığın heç vaxt qədir-qiymətini bilməmişik.

**- Seyran müəllim, erməni-müsəlman davası dediniz. Sovetlər zamanı ermənilərin azərbaycanlılara qarşı soyqırımı törətdikləri haqda məlumatımız var idimi?**

- Təbii ki, oxumuşduq. 1918-ci ildəki soyqırımı, 1948-ci il deportasiyası... Bunları bilirdik. Nə demək istəyirsən ki?..

**- Ermənilərin gələcəkdə də azərbaycanlılara eyni münasibəti göstərəcəyini düşünürdünüzmü?**

- Yox. Gərək düzünü deyəsən. Amma indi düşünürəm. Görünür, o vaxt ağlımız o qədər çatmırdı.

***Kür-Araz- Ararat,***
***Gözəldir bu həyat.***
***Qardaş olub***
***Hayastan, Azərbaycan***

Belə bir mahnı da var idi. Çox adam onu oxuyub. Gülağa Məmmədovdan üzü bəri. Biz bu mahnının qapazı altında böyümüşük. Ermənilərlə o vaxtlar dostluğumuz var idi. Mənim özümün erməni yazıçı dostum var idi. İndi Sankt-Peterburqda yaşayır - Levon Adyan. Bir-birimizi tərcümə edirdik, burada işləyirdi. Atamın dostu var idi, Arşak kişi. Onun çox igid bir oğlu var idi - Domu kəndində. Bu kənd Tağ və Tuğ kəndlərindən yuxarıdadır. Ermənilər hadisələr başlayanda onun oğlunu ermənilərin tapşırığını yerinə yetirmədiyinə görə güllələdilər. Ləqəbi də ”Çinkaçuk” idi. Yəni o zamanlar münasibət var idi, reallıq bu idi.

Məsələn, bizim kənddən ermənilər keçib Haramı düzünə tərəf qışlağa gedirdilər. Gecə, qaranlıq olanda dəfələrlə atam mənə deyib ki, get o erməniyə de ki, qaranlığa gedir, qurda-quşa rast gələr, gəlsin gecə qalsın, sonra yola düşər. Amma indi deyirlər ki, ziyalı, yazıçı belə şey deməz. Halbuki, obyekt elə bir alçaq obyektdir ki, deyər. Onlara heç vaxt inanmaram.

**- Deyirsiniz, gözüaçıq deyildik. Ermənilər altdan-altdan öz işlərini görürdülər. Bəs biz niyə edə bilmirdik?**

- Gözüaçıqlıq söhbəti deyil. Qoy sənə deyim, bizim partiya funksionerləri ki, var idi, onlar ermənilərin partiya funksionerlərindən min dəfə qorxaq, min dəfə alçaq, min dəfə şərəfsiz, min dəfə millət məsuliyyətini hiss etməyən, duymayan, dərk etməyən idilər.

Bizdə də deyənlər, yaxud demək istəyənlər olurdu həmişə, ağzına elə bir daş basırdılar ki, nəfəsi də çıxmırdı. Amma erməni funksioneri, erməni məmuru əksinə, kömək edirdi. Tutaq ki, bir erməni yuxarı - Moskvaya məktub yazanda ki, onu incidirlər, Azərbaycanda hamı - dəstə-dəstə məmurlar, böyüklü-kiçikli o məktuba görə əsirdilər. Belə vəziyyət yaranmışdı. Səbəb də bu idi.

**- Vaxtilə müsahibələrinizin birində demisiniz ki, Qarabağ işğalda olduğu üçün kişilikdən istefa vermisiniz. Bu ifadənin üzərində dayanırsınızmı?**

- Təxminən 6-7 il bundan əvvəl ”Xəzər” televiziyasında veriliş var idi. Orada ”kişilik necə olmalıdır?” mövzusunda müzakirə edirdik. Başlayan kimi dedim ki, gəlin belə müzakirə etməyək ki, kişi evə zənbillə gəlirsə, kişidir. Azərbaycan kişisi indiki vəziyyətdə başqa cür olmalıdır. Orada saat yarımlıq müzakirə getdi. Sonda hərə bir cümlə dedi, mövzunu yekunlaşdırmaq üçün mən belə demişdim ki, nə qədər ki, Dəmirqapı Dərbənd ətrafı ilə, nə qədər ki, Təbriz ətrafı ilə, nə qədər ki, Borçalı ətrafı ilə, qanı isti-isti axan Qarabağ düşmən tapdağı altındadır, lap aşağıdan, lap yuxarıya qədər kim özünü kişi hesab edir, etsin, mən kişilikdən istefa verirəm, özümü kişi hesab etmirəm. O sözümün üstündə də dururam. O söz sürüşkən söz deyil. Sərxoş kimi duran, ayaq üstə yaxşı dura bilməyən adamlara hərdən deyirlər ki, sən niyə buz üstə çıxmış dana kimi durmusan? Yəni mənim sözümün sürüşkən xassəsi yoxdur. Özüm də sürüşkən adam deyiləm. Bunu 50 ildir bilənlər də bilir. İndi də sözümün üstünə dururam. Nə olub ki, Qarabağı almışıq?..

**- Xeyr...**

- Onda söz elə dəyirmandakıdır - Koroğlu demişkən. Mən saytlara o qədər də meylli deyiləm, deyəsən haradasa yazmışdılar, mənə uşaqlar dedi. Xarici işlər naziri haqqında müzakirə gedib. Onun rusdilli olması ilə bağlı. Yazıblar ki, bəlkə də Qarabağı geri almışıq, xarici işlər naziri bunu başa sala bilmir?! İndi bəlkə almışıq, mənim xəbərim yoxdur?

**- İllər ötdükcə, torpaqlarımız işğal altında qaldıqca, Azərbaycan ictimaiyyətinin də Qarabağ barədə yanaşmalarında yadlaşma olur?**

- O fərq həmişə olacaq. Çünki bir problem isti-isti ola, bir də var köhnəlmiş... Amma bu asılıdır dövlətdən, onun ideologiyasından, yeritdiyi siyasətdən və bizim təhsilimizdən. Milli şüurumuzu tənzimləyən təhsilimizdir. Bizim milli şüurumuzu təhsil sistemimiz tənzimləməlidir. Təəssüf ki, təhsil sisteminin özünü tənzimləməyə böyük ehtiyac var. Özünün tənzimlənməyə ehtiyacı olan bir sistem mənim milli şüurumu necə tənzimləyə bilər?

Qayıdaq Qarabağ məsələsinə. Hamısı savadla, səviyyə ilə, təhsillə bağlıdır. Savad, səviyyə, milli şüur yüksək olanda artıq nəfs məsələsi müəyyən mənada sıradan çıxır. Bizə ən çox mane olan da bizim milli nəfsimizdir. Bizim milli nəfsimiz bəzən elə yerə gəlib çatır ki, rus çariçası məşhur Yekaterinanın dünyaya məlum, məşhur quduz tamahından daha dağıdıcı, daha ”möhtəşəm” olur.

**- Sizə elə gəlmirmi ki, Qarabağla bağlı ciddi əsərlər yazılmır, filmlər çəkilmir?**

- Kim məndən soruşur, öz fikrimi deyirəm: Qarabağ haqqında film də çəkilib, tamaşa da qoyulub, poema da, şeir də yazılıb. Roman da ithaf olunub. Elə mənim özümün ”Nekroloq” romanımda o var. Mən təxmini son 6-7 ildir, bu qərara gəlmişəm. Hətta bir dəfə müsahibə verdim ki, ən yaxın dostlarıma Qarabağ haqqında yazmağı qadağan etmişəm.

**- Bəli, elə o haqda sual verəcəkdik. Musa Yaqub, Ramiz Rövşən...**

- Özüm də o sıradayam təbii. Həmin cavabı təkrar etmək məcburiyyətində qalıram. O zaman da demişdim ki, azdan-çoxdan istedad verilib, fantaziya da var. Rembo kimi bir obraz yaradaram, qıra-qıra gedər düz Yeravana qədər və Yerevanı da, Qarabağı da alarıq. Mənə romanda, povestdə, şeirdə, poemada geri qaytarılan Qarabağ yox, dava vasitəsilə, müharibə ilə reallıqda alınan Qarabağ lazımdır. Mahnıda alınan Qarabağ mənə lazım deyil. Uşaq öyrətmirik ki?! Mən demişəm, Qarabağ haqqında ən yaxşı əsəri bizim Ali Baş Komandan, Müdafiə Nazirliyi xalqla bir yerdə yazmalıdır.

**- Eyni zamanda, ”Qarabağ şikəstəsi”nin oxunmasına da qarşısınız...**

- Bir dəfə metroda da eşitdim ki, fortepianoda bir sətir ”Qarabağ şikəstəsi” ifa edilir. Bunlar lazım deyil. Bilirsiniz, belə şeylər bizi bir az öyrəşdirir, sırtıq edir. İmmunitet deyirlər, bu da bizim əleyhimizə işləyir. Elə olmalıdır ki, Qarabağ həsrəti qalmalıdır. Bunu isə tənzimləməlidirlər. ”Şuşa” restoranı, ”Qarabağ” şadlıq evi, ”Qarabağ şikəstəsi” və s. - əleyhinəyəm. Bu gün mənim ”Qarabağ şikəstəsi” oxumağa haqqım yoxdur. Hansı haqla? Qarabağ özü sənin deyil, amma onun şikəstəsini oxuyursan. Əvvəl onu əldə elə, sonra şikəstəsini də oxu.

***”Bilsin, ana torpaq, eşitsin Vətən***
***Müsəlləh əsgərəm mən də bu gündən”***

Səməd Vurğun dediyi başqa şeydir, indi başqa müharibədir.

**(ardı gələn sayımızda)**

**Aqşin KƏRİMOV**
**Aysel ASLAN**